# Tarixi dərslər unudulmayan ən sərt imtahan olmalıdır

(Əvvəli 5-ci səhifədə).

qiyam qaldırdılar. Azərbaycan ordusunun böyük bir hissəsi bu qiyamın yatırılmasına göndərildi. Bu zaman bolşevik Rusiyası Azərbaycan üzərinə hücum əməliyyatını həyata keçirməyə başladı.

Bolşevik Rusiyası Bakının üzərinə 100 min nəfərlik təpədən dırnağa qədər silahlanmış ordu ilə gəlirdi. Həqiqətən də milli dövlətimizin belə hərbi qüvvələrin qarşısında dayanmağa gücü yox idi.

Xalq onda var olur ki, o, fəlakətindən güc almağı bacarır, sarsılmır. Əks təqdirdə xalq özünün yeni-yeni fəlakətlərini yaradır.

1919 - 1920-ci illərdə siyasi və sosial iqtisadi böhran yaşayan Azərbaycanda daxili siyasi vəziyyət gərgin idi: ölkənin ayrı-ayrı qəzalarında müxtəlif siyasi və sosial qruplar arasında silahlı münaqişələr baş verirdi. Bu münaqişələr yeni yaranmış gənc müstəqil dövlətin parçalanması üçün stimul yaradırdı. Fəaliyyət göstərən siyasi partiya və təşkilatlar öz niyyətlərinə çatmaq üçün 1920-ci ilin fevralında AK(b)P ilə birləşdi.

Bolşeviklərin uydurduğu ideyalar fəhlə və kəndliləri şirnikləndirirdi. "Fabrik-zavod fəhlələrin, torpaq kəndlilərin!" şüarı öz cəlbediciliyi ilə milli dövlətimizi yıxacaq güc halına gəlirdi. Həmçinin daxili qurumlar arasında müxtəlif əqidəli şəxslər son məqamda satqınlıq etdilər. Rusiya Bakı neftinə, ümumilikdə Azərbaycan kimi zəngin sərvətli bir ölkəyə yiyələnməyin gələcək əhəmiyyətini bilirdi və buna görə də, Azərbaycanda ötən illər ərzində öz tərəfdarlarını yarada bilmişdi və nəhayət, fəlakət yeni faciəli hallar yaratdı.1920-ci il aprelin 28-də Azərbaycan işğal olundu.

**Aprel işğalı nə deməkdir?!**

Bu Aprel inqilabı, Aprel çevrilişi, ən doğrusu isə Azərbaycanda Sovet hakimiyyətinin qurulması deməkdir. Səbəb isə Azərbaycan müstəqilliyinə son qoyulması və Sovet hakimiyyətinin qurulma istəkləri idi. Bu işğalın nəticəsi Azərbaycanda Sovet hakimiyyətinin qurulması (Kommunist Partiyasının rəhbərliyilə) və müstəqil Azərbaycan Sovet Sosialist Respublikasının elan edilməsi idi. Azərbaycan SSR 1922-ci ilə qədər müstəqil bir dövlət kimi fəaliyyət göstərdi.

**Siyasi "cahillik" və satqınlıq**

Bolşeviklər Azərbaycanı asanlıqla ələ keçirmək məqsədilə satqınlardan ibarət 5-ci koloniyanı hərəkətə keçirdilər. Aprelin 26-sı axşamı Bakı polis hissələri (Çingiz İldırımın başçılığı ilə) tərksilah edildi. Bayıldakı silah anbarı ələ keçirildi və bütün fəhlələr silahlandırıldı. Bayıl yamacında qurulmuş İngilis səhra və sahil topları inqilabçılar tərəfindən ələ keçirildi. Bakı Yunker məktəbi tərksilah edildi. Nargin adasında yerləşən müsavat-ingilis qüvvələriylə Bakı arasında əlaqə yaratmaq üçün qurulmuş rabitə xətti şəxsən Çingiz İldırımın (tarixi faktlara istinadən) rəhbərliyi ilə kəsildi. Bayıl həbsxanasındakı siyasi dustaqlar azad edildilər. Müsavatın "Bastilyası" və "Kronştatı" bir gecə içində inqilabçılar tərəfindən çökdürüldü. Radio inqilabçıların tam nəzarətinə keçdi.

Aprelin 27-də səhər saat 12-də XI ordu hissələri Azərbaycan ərazisinə hücuma başladı...

Qüvvələrin qeyri bərabərliyini nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti bəzi şərtlərlə hakimiyyətin müsəlman bolşeviklərinə verilməsi haqqında qərar çıxardı. Bu şərtlərə bolşeviklər əməl etsəydi, bu cür qəddar rejim yaranmazdı. Hakimiyyət ələ keçirildikdən sonra xalqımıza, onun ziyalılarına, hökumətdə təmsil olunmuş insanlara qarşı amansız təqib və repressiyalar başlandı...

Gəncədə 15 min azərbaycanlı öldürüldü, aprelin 28-dən 1921-ci ilin yayına kimi 50 min insan qətlə yetirildi; 12 general, 27 polkovnik, 460 nəfər müxtəlif rütbəli zabit və s. qətlə yetirildi. Rus işğalı 27 apreldən sonra da uzun müddət davam etmiş, tarixi istinadlara əsasən bildirilir ki, işğaldan sonra 150 dəfə üsyan baş vermişdir və xalq bolşeviklərə qarşı etirazını bildirmişdir. Ölkənin müxtəlif bölgələrində baş verən üsyanlar göstərirdi ki, xalq işğal rejimi ilə barışmamışdır.

**Fəlakətdən dərs alındı...**

Bolşevik işğalı sonrakı dövrlərdə də Azərbaycana fəlakətlər gətirməkdə davam etdi... Ötən əsrin 30-cu illərində, repressiya dövründə 70 mindən artıq Azərbaycan ziyalısı bu rejim tərəfindən məhv edildi. Ötən əsrin 80-ci illərinin sonlarında Dağlıq Qarabağ münaqişəsi də Moskvada DTK-nın bağlı qapıları arxasında planlaşdırıldı, torpaqlarımızın 20 faizi işğal olundu. 20 Yanvar qırğını, Xocalı faciəsi və bir çox faciələr törədildi, 4 il müharibə davam etdi, Atəşkəs olmasına rəğmən ölkəmiz daima sərhəd zonalarında toqquşma və terrorlara məruz qaldı; minlərlə soydaşlarımız torpaq və dövlətçiliyimiz uğrunda şəhadətə qovuşdu... Siyasi mübarizə davam etsə də, güclü dövlətlərlə birgə qəbul olunan qərar və qətnamələr sənəd üzərində qaldı... Ancaq yaşanılan fəlakətlər xalqa dərs oldu və xalq öz Ali Baş Komandanı, dövlətimizin rəhbəri ilə birləşərək torpaqlarımızı işğaldan azad etdi. Müstəqil dövlətimizin xalqla, ordu ilə birliyi sayəsində dünya tarixinə Azərbaycan Zəfəri yazıldı!

**Bibixanım İSAYEVA.**

# Diqqət təhlükəsizliyin əsasıdır

Kibercinayətkarlıq - kompyuter, şəbəkə və ya rəqəmsal cihazlardan istifadə etməklə törədilən qanunsuz əməllərdir. Burada hədəf həm fərdi şəxslər, həm də iri dövlət qurumları və ya şirkətlər ola bilər.

Hazırki dövrdə kibercinayətkarlığın ən geniş yayılmış növü kiberdələduzluq hallarıdır. Kiberdələduzluq dedikdə, internet informasiya ehtiyatları vasitəsilə insanları aldatmaq, onların pul vəsaitlərini, bank məlumatlarını və ya şəxsi hesablarını aldatma və ya etibardan sui-istifadə yolu ilə ələ keçirmək başa düşülür. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyəti onlayn mühitdə edilən saxtakarlıqları da əhatə edir.

Bank kartı fırıldaqları son illər ən çox rast gəlinən kiber cinayətlərdən biridir. Dələduzlar müxtəlif üsullarla kart məlumatlarını ələ keçirərək hesabdan icazəsiz əməliyyatlar aparır, vətəndaşlara ciddi maddi ziyan vururlar. Sosial şəbəkələrdə dələduzluq halları geniş yayıldığı üçün həm maliyyə, həm də şəxsi məlumat təhlükəsizliyi baxımından ciddi risk yaradır. Bu cür əməllər Azərbaycan qanunvericiliyinə görə həm inzibati, həm də cinayət məsuliyyətinə səbəb olur.

Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 30-cu fəslində kibercinayətkarlıqla bağlı bir sıra normalar, o cümlədən İnformasiya və Kommunikasiya Texnologiyaları sisteminə qanunsuz daxil olma (maddə 271), Elektron vasitələri qanunsuz ələ keçirmə (maddə 272), İnformasiya və Kommunikasiya Texnologiyaları sisteminə və elektron verilənlərə qanunsuz müdaxilə (maddə 273), Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vəsaitlərin dövriyyəsi (maddə 273-1), Elektron verilənlərin saxtalaşdırılması (maddə 273-2) kimi normalar müəyyən olunmuşdur.

Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycanda kibercinayətkarlıqla mübarizə sahəsində son illərdə (xüsusilə 2023-2026-cı illəri əhatə edən dövrdə) həm institusional, həm də qanunvericilik baxımından köklü islahatlar aparılmışdır. Həmin islahatların tərkib hissəsi olaraq, Azərbaycan Respublikası Prezidentinin 02 iyun 2023-cü il tarixli Fərmanı ilə Daxili İşlər Nazirliyinin nəzdində Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi yaradılmışdır.

Mövcud qanunvericiliyə əsasən, vətəndaşların, o cümlədən istehlakçıların hüquqları dövlət tərəfindən qorunur. Lakin bu cür dələduzluq hallarının artması vətəndaşlar üçün ciddi maddi və psixoloji narahatlıq yaradır. Bu səbəbdən də, əsas məsuliyyət yalnız dövlət qurumlarının deyil, eyni zamanda hər bir fərdin üzərinə düşür. Vətəndaşlara tövsiyə olunur ki, şəxsi və bank məlumatlarını üçüncü şəxslərlə paylaşmasınlar, tanımadıqları platformalara kart rekvizitlərini daxil etməsinlər və bank hesabına dair məlumatların yalnız şəxsin özünə məxsus olduğunu unutmasınlar. Təcrübədə rast gəlinən hallar göstərir ki, sadə və diqqətsiz davranışlar belə ciddi hüquqi problemlərə yol aça bilər. Sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində yayılan dələduzluq xəbərləri yalnız məlum olan faktların bir hissəsidir. Reallıqda isə bu cür hadisələrin miqyası daha genişdir. Xüsusilə bank, polis və digər dövlət qurumlarının adından edilən saxta zənglər və göndərilən mesajlar vətəndaşlar üçün ciddi təhlükə mənbəyidir. Belə hallarda vətəndaşlar heç bir halda şəxsi məlumatlarını paylaşmamalı, birbaşa həmin quruma müraciət edərək məlumatın doğruluğunu dəqiqləşdirməlidirlər. Eyni zamanda ölkə xaricindən daxil olan naməlum zənglərə və şübhəli keçid linklərinə cavab verilməməsi tövsiyə olunur.

Bundan başqa, müəyyən olunmuşdur ki, dələduzluq hallarının əksəriyyəti nisbətən kiçik məbləğlərlə bağlı olur. Dələduzlar da məhz bu psixoloji amildən istifadə edərək, vətəndaşların az məbləğə görə şikayət etməkdən çəkinəcəyini hesablayırlar. Kütləvi və mütəşəkkil dələduzluq halları isə artıq daha ciddi hüquqi nəticələr doğurur.

Ümumilikdə, təcrübə göstərir ki, dələduzluğa qarşı mübarizədə ən effektiv qorunma vasitəsi vətəndaşın özünün ayıq-sayıq, məsuliyyətli və məlumatlı davranışıdır. Rəqəmsal dövrdə təhlükəsizlik yalnız texniki deyil, eyni zamanda sosial və fərdi şüurun formalaşmasından asılıdır.

Hüquqi mexanizmlərə gəldikdə isə, vətəndaşlar dələduzluq halı ilə üzləşdikdə Daxili İşlər Nazirliyinin 102 Xidməti vasitəsilə polisə müraciət etmək, polis və prokurorluq orqanlarına ərizə təqdim etmək və ya inzibati qaydada məhkəməyə müraciət etmək hüququna malikdirlər.

**Seyfulla BAĞIROV,**
**Qəbələ rayon prokurorluğunun müstəntiqi,**
**II dərəcəli hüquqşünas.**

# Kriminalist, hüquqşünas-alim, müəllim

Hər bir xalq öz qəhrəmanlıq tarixi ilə tanınar. O qəhrəmanları isə yetişdirən və onlarda düşüncə və dünyagörüşü formalaşdıran müəllimdir. Ailə mühitində körpə yaşlarından ilkin tərbiyə alınsa da, insanın insan kimi formalaşmasında müəllim əməyi ölçüyəgəlməzdir.

Müəllim insanların elm qazanmasında başlıca meyar, insan kimi formalaşmasında isə memardır. Qəhrəmanları yetişdirən də müəllim tərbiyəsi və təbliğidir. M.S.Ordubadi demiş ki, "İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır."

Ağıl və düşüncə isə məhz ailədən başlanar, məktəb və elm ocaqlarında formalaşar. Məktəblərdən başlanar alimlərin ilk arzuları. Xalqın alim övladları isə o xalqın əvəzolunmaz xəzinəsidir. Dahi Nizami Gəncəvi demiş ki:

***Hər uca rütbədən biliniz fəqət,***
***Alimin rütbəsi ucadır əlbət.***

Rasim Mirzəyev Vəndam qəsəbəsinin 1 saylı (pilot məktəb) tam orta məktəbinin məzunudur. Onun elm sahəsində qazandığı uğurlar yalnız Vəndam qəsəbəsi, Qəbələ rayonu deyil, bütünlüklə Azərbaycanın, xalqımızın qürur və fəxarətidir. Bu yaxınlarda eşitdiyimiz xəbər - Rasim Mirzəyevin dünyasını dəyişməsi bir həmkəndli kimi məni daha çox mütəəssir etdi. Onu bir daha rayonumuzun sakinlərinə, oxucularımıza tanıtmaq istədim.



Rasim müəllim 1948-ci il oktyabrın 30-da müəllim ailəsində anadan olmuşdur. 1966-cı ildə Vəndam kənd orta məktəbinin 10-cu sinfini bitirmiş, eyni zamanda bağçı-mexanizator peşəsinə yiyələnmişdir. Məktəb illərində fəallığı ilə seçilmiş, futbol komandasının kapitanı, divar qəzetinin redaksiya heyətinin və özfəaliyyət dərnəyinin üzvü olmuşdur. Kiçik yaşlarından idmana və fotoqrafiyaya böyük maraq göstərmiş, bir müddət əfsanəvi Neft Daşlarında əmək fəaliyyətinə başlamışdır. Lazımi əmək stajı topladıqdan sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində "Bakı" və "Vışka" qəzetlərində ictimai əsaslarla fotojurnalist kimi fəaliyyət göstərmişdir.

**Elmi və pedaqoji fəaliyyəti**

Təhsilini başa vurduqdan sonra əmək fəaliyyətini BDU-nun hüquq fakültəsində davam etdirmiş, "Cinayət prosesi və kriminalistika" kafedrasında əvvəlcə laborant, sonra kriminalistika laboratoriyasının müdiri olmuşdur. 1975-ci ildən müəllim, 1980-ci ildən isə yeni yaradılmış Kriminalistika kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. Sonrakı illərdə "Kriminalistika və məhkəmə ekspertizası" kafedrasının dosenti kimi fəaliyyət göstərmişdir. Bir müddət həmin kafedraya rəhbərlik etmişdir.

Rasim müəllim "Kriminalistika", "Məhkəmə ekspertizası", "Kriminalistik ekspertiza", "Ayrı-ayrı növ cinayətlərin istintaq metodikası", "Məhkəmə fotoqrafiyası, videoçəkiliş və səs yazısı" fənlərini tədris etmişdir. Bakalavr və magistr pillələrində mühazirələr oxumuş, yüzlərlə tələbənin hüquqşünas kimi formalaşmasına töhfə vermişdir.

Elmi fəaliyyətlə də ardıcıl məşğul olmuş, Moskvada Ümumittifaq Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunun dissertanturasını bitirmiş, "Cinayət mühakimə icraatında foto və sənədlərdən istifadə olunması" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır. Onlarla elmi məqalənin müəllifi olmuş, "Kriminalistik fəaliyyətin psixoloji əsasları" mövzusunda doktorluq işi üzərində çalışmışdır.

**Kriminalistikanın inkişafında rolu**

Rasim Mirzəzadənin fəaliyyəti nəticəsində Azərbaycanda kriminalistika sahəsində

(Ardı 7-ci səhifədə).